Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 24 ” iyul tarixli
221 nömrəli Qərarı ilə
**yeni redaksiyada verilmişdir.**

“Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Xüsusi Proqram”a

**3 nömrəli əlavə**

## Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə

## Tədris Proqramı

| Sıra №-si | Mövzuların adları | Dərslərin növləri və həcmi (saatla) | | |
|---|---|---|---|---|
| | | cəmi | mühazirələr | praktiki |
| 1 | 2 | 3 | 4 | 5 |
| **1. Avtomobil nəqliyyatı ilə sərnişindaşıma qaydaları** | | | | |
| 1.1. | **Avtomobil nəqliyyatı ilə sərnişindaşıma sahəsində normativ hüquqi aktlar və onların əsasında fəaliyyətin təşkili:**<br>- “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanunu;<br>- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli Qərarı ilə təsdiq edilmiş “Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları”;<br>- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 27 mart tarixli 183 nömrəli Qərarı ilə təsdiq edilmiş “Müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələblər”;<br>- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 3 aprel tarixli 52 | 3 | 3 | |

| | | | | |
|---|---|---|---|---|
| 1.2. | nömrəli Qərarı ilə təsdiq edilmiş “Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişin daşımalarına daşıyıcıların cəlb olunmasına dair müsabiqənin keçirilməsi Qaydası”<br><br>**Avtobuslarla sərnişin daşımalarının yerinə yetirilməsi:**<br>- sərnişinlərin hüquq və vəzifələri;<br>- sərnişindaşıma xidməti göstərən daşıyıcıların hüquq və vəzifələri;<br>- avtobus sürücülərinin hüquq və vəzifələri;<br>- Azərbaycan Respublikasının avtomobil nəqliyyatı haqqında normativ hüquqi aktlarının tələblərinə riayət edilməməsinə görə daşıyıcıların, sürücülərin və sərnişinlərin məsuliyyəti;<br>- avtobuslarla sərnişin daşımalarının yerinə yetirilməsinə dövlət nəzarəti | 1 | 1 | |
| **Mövzu üzrə saatların cəmi** | | **4** | **4** | |
| **2. Avtobus sürücülərinə, habelə avtobuslara və onların istismarına dair ümumi tələblər** | | | | |
| 2.1. | **Avtobus sürücülərinə dair tələblər:**<br>- sürücülərə dair ümumi tələblər;<br>- sürücülərin xarici görünüşü və geyim forması;<br>- sürücünün sağlamlığı və düzgün qidalanması;<br>- sürücünün iş və istirahət rejimi normalarına riayət olunması. | 1 | 1 | |
| 2.2. | **Avtobusların istismarına dair tələblər:**<br>- avtobusların normativ hüquqi aktların tələblərinə uyğunluğu, qısa texniki xarakteristikası və təchizatı;<br>- ümumi istifadədə olan avtobusların marşrut lövhəsi və digər məlumatlar;<br>- avtobusların istismarına dair ümumi tələblər, hərəkət vaxtı baş verən qəza və nasazlıqlarla əlaqədar sürücünün fəaliyyəti;<br>- avtobusların saxlanılması üçün istehsalat sahələri;<br>- təhlükəsizlik texnikası, sanitariya qaydaları, yanğın təhlükəsizliyi və əməyin mühafizəsi | 1 | 1 | |
| **Mövzu üzrə saatların cəmi** | | **2** | **2** | |

| | | | | |
|---|---|---|---|---|
| **3. İctimai nəqliyyatda davranış mədəniyyəti** | | | | |
| 3.1. | - sürücünün davranışının təhlili və davranışına təsir edən faktorlar;<br>- sərnişinlərlə etik davranış qaydaları və mədəni rəftar;<br>- empatiya və ünsiyyət;<br>- münaqişəli vəziyyətin və stresin idarə edilməsi;<br>- avtobusda tütün çəkilməsinin və qida qəbul edilməsinin yolverilməzliyi;<br>- əlilliyi olan şəxslərlə davranış qaydası | 4 | 4 | |
| **Mövzu üzrə saatların cəmi** | | **4** | **4** | |
| **4. Yol hərəkəti və hərəkət təhlükəsizliyinin təmin olunması qaydaları haqqında ümumi məlumat** | | | | |
| 4.1. | - yol hərəkəti qaydaları haqqında ümumi məlumat;<br>- yol hərəkəti qaydalarının pozulmasına görə tətbiq edilən cərimələr;<br>- mürəkkəb yol şəraitində (çətin keçilən yol sahələrində, tıxaclarda, əlverişsiz hava şəraitində və s.), sutkanın qaranlıq vaxtında və məhdud görünmə şəraitində avtobusun təhlükəsiz idarə edilməsi qaydaları;<br>- avtobusun dayanıqlılığı və aşmaya qarşı davamlılığı;<br>- ekstremal şəraitlərdə sürücülərin düzgün qərar qəbul etməsi;<br>- avtobusların idarə olunmasını çətinləşdirən və hərəkətin təhlükəsizliyinə təsir edən amillər;<br>- yol-nəqliyyat hadisəsinin qarşısının alınması üçün qabaqlayıcı tədbirlər;<br>- avtobusların iştirakı ilə baş verən yol-nəqliyyat hadisələri haqqında ümumi məlumat (yol-nəqliyyat hadisələri ilə əlaqədar əldə olunmuş videomaterialları nümayiş etdirməklə hadisələrin başvermə səbəbləri, sürücü, avtomobil və yol amilinin rolu barədə geniş izahın verilməsi) | 4 | 4 | |
| **Mövzu üzrə saatların cəmi** | | **4** | **4** | |
| **5. İlk tibbi yardım** | | | | |

| | | | | |
|---|---|---|---|---|
| 5.1. | - ilk tibbi yardım barədə ümumi məlumat;<br>- ilk tibbi yardım qutusunun tərkibi və oradakı tibb vasitələrindən istifadə qaydaları;<br>- yol-nəqliyyat hadisəsi baş verdikdə xəsarət alanlara ilk tibbi yardım göstərilməsinin ardıcıllığı | 2 | 2 | |
| **Mövzu üzrə saatların cəmi** | | **2** | **2** | |
| **6. Avtobusların idarə edilməsi üzrə sürmə təlimi** | | | | |
| 6.1. | **Avtobusların idarə edilməsi:**<br>- hərəkətə başlama, manevretmə və avtomobillərin yolun hərəkət hissəsində yerləşdirilməsi qaydalarına uyğun idarəetmə;<br>- hərəkət üçün maneə və təhlükə yaradan şəraitlərdə avtobusların idarə edilməsi;<br>- avtobuslarda sərnişinlərin rahatlığını və təhlükəsizliyini təmin edən idarəetmə üsulları;<br>- ekoloji səmərəliliyin təmin edilməsi və yanacaq sərfiyyatının azaldılması məqsədilə avtobusların "ekosürmə" üsulu ilə idarə edilməsi | 6 | | 6 |
| **Mövzu üzrə saatların cəmi** | | **6** | | **6** |
| **Cəmi** | | **22** | **16** | **6** |

“Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Xüsusi Proqram”a

**4 nömrəli əlavə**

## Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, habelə avtomobil nəqliyyatı ilə yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə

## Tədris Proqramı

| Sıra №-si | Mövzuların adları | Dərslərin növləri və həcmi (saatla) | | |
|---|---|---|---|---|
| | | cəmi | mühazirələr | praktiki |
| 1 | 2 | 3 | 4 | 5 |
| | **1. Avtomobil nəqliyyatı ilə yük daşımaları qaydaları** | | | |
| 1.1. | **Avtomobil nəqliyyatı ilə yükdaşıma sahəsində normativ hüquqi aktlar və onların əsasında fəaliyyətin təşkili:**<br>- “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanunu;<br>- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 142 nömrəli Qərarı ilə təsdiq edilmiş “Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları”;<br>- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 27 yanvar tarixli 10 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhlükəli yüklərin avtomobil nəqliyyatı ilə daşınması Qaydaları”;<br>- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 7 iyul tarixli 104 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkət etməsi və onların hərəkətinə xüsusi icazənin verilməsi Qaydası”; | 5 | 5 | |

| | | | | |
|---|---|---|---|---|
| | - Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 oktyabr tarixli 355 nömrəli Qərarı ilə təsdiq edilmiş “Elektron əmtəə-nəqliyyat qaiməsinin forması, tətbiqi, uçotu və istifadəsi Qaydaları”nın və “Yük avtonəqliyyatı üçün elektron yol vərəqinin forması, tətbiqi, uçotu və istifadəsi Qaydaları”. | | | |
| 1.2. | **Avtomobil nəqliyyatı ilə yük daşımalarının yerinə yetirilməsi:**<br>- sürücülərin və daşıyıcıların hüquq və vəzifələri;<br>- Azərbaycan Respublikasının avtomobil nəqliyyatı haqqında normativ hüquqi aktlarının tələblərinə riayət edilməməsinə görə daşıyıcıların və sürücülərin məsuliyyəti;<br>- avtomobil nəqliyyatı ilə yük daşımalarının yerinə yetirilməsinə dövlət nəzarəti. | 1 | 1 | |
| **Mövzu üzrə saatların cəmi** | | **6** | **6** | |
| **2. Yük avtomobillərinin sürücülərinə, habelə yük avtomobillərinə və onların istismarına dair ümumi tələblər** | | | | |
| 2.1. | **Yük avtomobillərinin sürücülərinə dair tələblər:**<br>- sürücülərə dair ümumi tələblər;<br>- yük avtomobilinə və sürücüyə aid sənədlər;<br>- sürücünün sağlamlığı və düzgün qidalanması;<br>- sürücünün fəaliyyətinin Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun təşkil olunması. | 1 | 1 | |
| 2.2. | **Yük avtomobillərinin istismarına dair tələblər:**<br>- yük avtomobillərinin normativ hüquqi aktların tələblərinə uyğunluğu, qısa texniki xarakteristikası və təchizatı;<br>- qoşqu və yarımqoşqular, avtoqatarlar;<br>- yük avtomobillərinin istismarına dair ümumi tələblər, hərəkət vaxtı baş verən qəza və nasazlıqlarla əlaqədar sürücünün işi;<br>- yük avtomobillərinin saxlanılması üçün istehsalat sahələri, təhlükəsizlik texnikası, sanitariya qaydaları, yanğın təhlükəsizliyi və əməyin mühafizəsi. | 1 | 1 | |

| | | | | |
|---|---|---|---|---|
| **Mövzu üzrə saatların cəmi** | | **2** | **2** | |
| **3. Yük avtomobili sürücülərinin etik normalara riayət etməsi və davranış qaydaları** | | | | |
| 3.1. | - sürücünün davranışının təhlili və davranışına təsir edən faktorlar;<br>- etik davranış qaydaları və mədəni rəftar;<br>- empatiya və ünsiyyət;<br>- münaqişəli vəziyyətlərin və stresin idarə edilməsi. | 2 | 2 | |
| **Mövzu üzrə saatların cəmi** | | **2** | **2** | |
| **4. Yol hərəkəti və hərəkət təhlükəsizliyinin təmin olunması qaydaları haqqında ümumi məlumat** | | | | |
| 4.1. | - yol hərəkəti qaydaları haqqında ümumi məlumat;<br>- yol hərəkəti qaydalarının pozulmasına görə tətbiq edilən cərimələr;<br>- mürəkkəb yol şəraitində (çətin keçilən yol sahələrdə, tıxaclarda, əlverişsiz hava şəraitində və s.), sutkanın qaranlıq vaxtında və məhdud görünmə şəraitində yük avtomobillərinin təhlükəsiz idarə edilməsi qaydaları;<br>- yük avtomobilinin dayanıqlılığı və aşmaya qarşı davamlılığı;<br>- ekstremal şəraitlərdə sürücülərin düzgün qərar qəbul etməsi;<br>- yük avtomobillərinin idarə olunmasını çətinləşdirən və hərəkətin təhlükəsizliyinə təsir edən amillər;<br>- yol-nəqliyyat hadisəsinin qarşısının alınması üçün qabaqlayıcı tədbirlər;<br>- yük avtomobillərinin iştirakı ilə baş verən yol-nəqliyyat hadisələri haqqında ümumi məlumat (yol-nəqliyyat hadisələri ilə əlaqədar əldə olunmuş videomaterialları nümayiş etdirməklə hadisələrin başvermə səbəbləri, sürücü, avtomobil və yol amilinin rolu barədə geniş izahın verilməsi). | 4 | 4 | |
| **Mövzu üzrə saatların cəmi** | | **4** | **4** | |
| **5. İlk tibbi yardım** | | | | |
| 5.1. | - ilk tibbi yardım barədə ümumi məlumat;<br>- ilk tibbi yardım qutusunun tərkibi və oradakı tibb vasitələrindən istifadə qaydaları;<br>- yol-nəqliyyat hadisəsi baş verdikdə xəsarət alanlara ilk tibbi yardım göstərilməsinin ardıcıllığı. | 2 | 2 | |

| | | | | |
|---|---|---|---|---|
| **Mövzu üzrə saatların cəmi** | | **2** | **2** | |
| **6. Yük avtomobilində sürmə təlimi** | | | | |
| 6.1. | **Yük avtomobilinin idarə edilməsi:**<br>- hərəkətə başlama, manevretmə və avtomobillərin yolun hərəkət hissəsində yerləşdirilməsi qaydalarına uyğun idarəetmə;<br>- hərəkət üçün maneə və təhlükə yaradan şəraitlərdə avtobusların idarə edilməsi;<br>- ekoloji səmərəliliyin təmin edilməsi və yanacaq sərfiyyatının azaldılması məqsədilə yük avtomobilinin "ekosürmə" üsulu ilə idarə edilməsi. | 6 | | 6 |
| **Mövzu üzrə saatların cəmi** | | **6** | | **6** |
| **Cəmi** | | **22** | **16** | **6** |